Fevralın 29-da elm və təhsil naziri Emin Əmrullayev media üçün brifinq keçirib.

Brifinqdə Emin Əmrullayev aşağıdakı məsələləri xüsusi olaraq qeyd edib:

- Qarabağ Universitetinin işçi heyəti Xankəndidə mənzillə təmin olunacaq.

- Nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almış şəxslərin Qarabağ Universitetində tədris prosesinə cəlbi nəzərdə tutulur.

- Türkiyə–Azərbaycan Universitetində tədris prosesinə ilkin mərhələdə Türkiyədən Orta Şərq Texniki Universiteti, İstanbul Texniki Universiteti və Hacəttəpə Universiteti, Azərbaycandan isə Azərbaycan Texniki Universiteti tərəfdaş kimi cəlb olunacaq.

- Növbəti tədris ilindən Türkiyə–Azərbaycan Universitetində texniki, texnoloji və mühəndislik ixtisasları üzrə 100 tələbənin qəbulu həyata keçiriləcək.

- Həm Türkiyə–Azərbaycan, həm də Qarabağ Universitetində yeni tədris modelləri və ən yaxşı tələbə-müəllim kontingentinin formalaşdırılması hədəflənib.

- "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 21 ölkə üzrə 139 universitetdə 752 tələbə təqaüd almaq hüququ qazanıb.

- Son 5 ildə (2019–2023) Q1 jurnallarda dərc olunan elmi işlərin sayı iki dəfə artıb.

- Bu il riyaziyyat, Azərbaycan dili (rus bölməsi) və xarici dil fənlərini tədris edən müəllimlər sertifikatlaşdırma prosesinə cəlb olunacaqlar.

- Məktəbdə təhlükəsizlik qaydaları, həmçinin qısnama ilə mübarizəyə dair təlimatlar tərtib olunur.

Brifinqin sonunda media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.